UOT 94

MAHİRƏ ƏZİZOVA
t.ü.f.d, Bakı Slavyan universiteti
Diplomatiya və xarici siyasət kafedrası
mahiraaziz@mail.ru

İŞĞALDAN SONRA ÇAR RUSİYASININ DƏRBƏNDDƏ HƏYATA KEÇİRDİYİ GÖMRÜK – KARANTİN SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/94-100

Rusiya beynəlxalq ticarət yollarının kəsişdiyi Dərbəndə ilk növbədə Qacar İranı ilə ticarət əlaqələrində mühüm liman şəhəri kimi baxırdı. Buna görə də Dərbənddə gömrük sisteminin təşkili məsələsi şəhərin ruslar tərəfindən işğalının ilk günlərindən gündəmə gəlmişdi. Təqdim olunan məqalədə Qafqaz Arxeoqrafiya Komissiyasının aktları, eləcə də bu problemə dair ədəbiyyatın verdiyi məlumatlar əsasında Dərbənddə gömrük, gömrük-karantin işinin təşkili problemi araşdırılmışdır.

Araşdırma zamanı belə nəticəyə gəlinmişdir ki, Rusiya imperiyasının Cənubi Qafqazdakı gömrük sistemində xüsusi yer tutmuş Dərbənd gömrük-karantin hissəsinə Qacar İranı və Osmanlı Türkiyəsindən imperiyanın daxili quberniyalarına qaçaqmalçılıq yolu ilə müxtəlif malların daxil olmasının, eləcə də müxtəlif yoluxucu xəstəliklərin qarşısının alınması kimi vacib funksiyalar həvalə edilmişdi.

Açar sözlər: Rusiya imperiyası, gömrük siyasəti, Cənubi Qafqaz, Dərbənd gömrükxanası.

Giriş. Dərbənd hələ orta əsrlərdən şərqlə qərb arasındakı tranzit ticarətdə mühüm rol oynayan mərkəzlərdən biri olmuşdur. Xəzər dənizinin sahilində, beynəlxalq ticarət yollarının kəsişməsində yerləşməklə əlverişli coğrafi mövqeyə malik olan Dərbənd bu bölgənin qonşu xalqlar və dövlətlərlə ticarət əlaqələrində hər zaman böyük əhəmiyyət kəsb etmişdir. XIX əsrin əvvəlləri üçün Dərbənddə 80 tacirə məxsus 420 dükanın, 4 karvansarayın olduğu göstərilir (6, 39). Liman şəhəri olan Dərbəndin olduqca əlverişli coğrafi mövqeyi, həm dəniz ticarəti, həm də karvan yollarının kəsişməsində yerləşməsi onun quru yolla həyata keçirilən ticarətin mərkəzlərindən biri kimi də şöhrət qazanmasına gətirib çıxarmışdı. Bu amil sözügedən bölgənin Rusiya hakimiyyəti altına keçdiyi ilk vaxtlardan etibarən Dərbənddə gömrük sisteminin təşkilini zəruri edirdi. Bütün bu məsələlər XIX əsr Azərbaycan tarixinin müxtəlif sahələrinin öyrənilməsi baxımından əvəzsiz mənbə hesab olunan Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında da özünün kifayət qədər geniş əksini tapmışdır. Təqdim olunan məqalədə məhz sözügedən aktların verdiyi məlumatlar əsasında Dərbənddə gömrük işinin təşkil olunması məsələsi araşdırılır.

İlk növbədə qeyd edərdik ki, Dərbənd gömrük sistemi 15 oktyabr 1810-cu ildən 1 yanvar 1844-cü ilədək Bakı liman və sərhəd gömrükxanasının Dərbənd gömrük zastavası, 2 yanvar 1844-cü ildən 3 may 1847-ci ilə kimi Bakı liman və sərhəd gömrükxanasının Dərbənd gömrük postu, 4 may 1847-ci ildən 30 mart 1861-ci ilə kimi Bakı gömrük-karantin idarəsinin Dərbənd gömrük-karantin postu, 31 mart 1861-ci ildən 9 dekabr 1867-ci ilə kimi Dağıstan gömrük-karantin nəzarətinin 3-cü dərəcəli Dərbənd gömrük-karantin zastavası, 10 dekabr 1867-ci ildən 1 fevral 1875-ci ilə kimi 1-ci dərəcəli Bakı gömrük-karantin kontorunun 3-cü dərəcəli Dərbənd gömrük-karantin zastavası, 2 fevral 1875-ci ildən 24 mart 1881-ci ilə kimi isə Bakı gömrük-karantin kontorunun Dərbənd gömrük-karantin postu kimi fəaliyyət göstərmişdi (1, 91).

Cənubi Qafqazda gömrük işinin təşkil olunması məqsədilə hələ 1803-cü il oktyabrın 3-də Rusiya Senatı Gürcüstanda gömrükxanaların yaradılması və gömrük ödənişlərinin Həştərxan tarifi üzrə toplanması haqqında qərar qəbul etmişdi. Bu qərara uyğun olaraq Azərbaycan ərazisində də gömrük məntəqələrinin təşkilinə dair hazırlıq işləri aparılır. Qafqazdakı rus qoşunlarının baş komandanı qraf İ.V.Qudoviç Rusiya kommersiya nazirliyinə göndərdiyi təliqədə ilk gömrükxananın Bakıda yaradılmasını məqsədəuyğun hesab edirdi. Bəlli olduğu kimi, 1806-cı ilin oktyabrında Bakı xanlığı işğal edilir. Bu hadisədən az sonra, 1807-ci ilin yanvarında Qudoviçin sözügedən təliqəsi təsdiq

edilmək üçün imperatora təqdim edildi. Rusiya hökuməti Bakı limanının mal dövriyyəsinə nəzarət etmək üçün 1807-ci il yanvarın 25-də Senatının Bakıda gömrük təsisatı yaradılması haqqında fərman dərc etdi. Lakin 1804-cü ildən Rusiya ilə Qacarlar dövləti arasında başlanan hərbi əməliyyatların davam etməsi, habelə Azərbaycanın əksər ərazilərində xan idarəçiliyinin mövcudluğu gömrükxananın açılmasını bir qədər ləngitmişdi. Çarın "Bakı gömrükxanasının açılması haqqında" adlı xüsusi fərmanına əsasən, 1809-cu il avqustun 6-da Bakı gömrükxanası fəaliyyətə başladı (25, 101).

Xəzər dənizində mühüm liman şəhəri və Cənubi Qafqazın ticarət mərkəzlərindən biri olan Dərbənddə də gömrük sisteminin təşkili məsələsi şəhərin ruslar tərəfindən işğalının ilk günlərindən gündəmə gəlmişdi. Xəzər dənizindəki ticarəti Qara dəniz boyunca yerləşən Gürcüstan və digər əyalətlərlə bağlamaq üçün Dərbənddə gömrük zastavasının təşkili, daha sonra həmin zastavanın Bakı gömrükxanasına tabe etdirilməsini nəzərdə tutulurdu (15, 40).

Lakin baş komandan qraf İ.V. Qudoviç həmin dövrdə nəzərdə tutulan gömrük məntəqələrinin təşkilini təxirə salmağı məsləhət görür. O, gəmilərin yan alması üçün münasib körpünün olmadığı Dərbənddə gömrük zastavasının təşkil edilməsinin hələ vaxtından qabaq olduğunu hesab edir, belə ki, yenicə itaətə gətirilmiş yerlərdə Rusiyadakı gömrük qaydaların tətbiq olunması yeni qaydalara öyrəşməyən yerli əhalinin narazılığına səbəb ola bilər. Həmçinin İranla savaş bitmədən və sərhədlər təsbit edilmədən belə bir məntəqələrin salınması məqsədəuyğun deyil (14, 42).

İlk öncə Dərbənddə gömrük zastavasının açılmasına hazırlıq məqsədi daşıyan tədbirlər görülür. Dərbənd şəhərinə Bakı ilə yanaşı Xəzərdə mühüm dəniz limanı kimi baxan Rusiya hökuməti bu şəhərlər arasındakı quru ticarət yollarının qaydaya salınması məqsədilə müəyyən addımlar atır. İlk növbədə Dərbənd şəhərindən əldə olunmuş gəlirlərin müəyyən bir qisminin bu işin təşkilinə yönəldilməsi nəzərdə tutulmuşdu. Bu barədə qraf İ.V. Qudoviçə 14 noyabr 1806-cı il tarixli məktubunda imperiyanın xarici işlər naziri baron A.Y. Budberq qeyd edirdi ki, Dərbənddən əldə olunan gəlirlər Qudoviçin sərəncamında qalmalı və həmin vəsait Bakıdan Dərbəndə, hətta Qızlara kimi ərazidə olan karvansarayların bərpasına sərf olunmalıdır (16, 703).

Bu təlimat qısa bir zamanda öz həllini tapır. Qraf İ.V. Qudoviçin 1809-cu il yanvarın 27-də Xəzinə ekspedisiyasına göndərdiyi məktubdan bəlli olur ki, keçmiş xarici işlər naziri baron A.Y. Budberqin fərmanı ilə onun sərəncamına verilmiş Bakı və Dərbənd məntəqələrinin gəlirlərindən toplanan vəsait fövqəladə xərclərə, eləcə də Bakıda əlverişli və təhlükəsiz limanın təşkil olunmasına, Bakıdan Dərbənd və Qızlara kimi olan ərazilərdə karvansarayların fəaliyyətlərinin bərpa edilməsinə və Bakı qalasının bərpasına yönləndirilmişdir (17, 49).

Dərbənd də daxil olmaqla bir sıra Cənubi Qafqaz şəhərlərində gömrük məntəqələrinin təşkil olunması və bu yerlərdə baxış keçirmək məqsədilə Həştərxan liman gömrüyünün direktoru İvanov Tiflisdən Bakıya ezam olunmuşdu. İvanov nəzərdə tutulmuş yerlərdə apardığı müşahidələrdən sonra, 1809-cu il iyunun 25-də rus qoşunlarının baş komandanına raport təqdim edir. Raportda o, "bu yerin ticarət dövriyyəsinin istiqaməti nəzərə alınaraq, Bakı gömrükxanasına tabe etdirilmək şərti ilə Yelizavetpol, Şuşa, Şəki, Şirvan, Salyan, Dərbənd və Kürdə gömrük zastavaları təşkil etməyin zəruriliyi" qənaətinə gəldiyini qeyd edirdi (21, 82).

Lakin 1809-cu ildə Qafqazda general İ.V. Qudoviçi əvəz edən qraf A.P. Tormasov Dərbənddə gömrük zastavasının təşkil edilməsi məsələsinə daha ehtiyatlı yanaşmağı təklif edirdi. Onun fikrincə, belə məntəqələrin təşkili xanların ixtiyarında olan rahdar vergisinin ləğv olunmasına gətirib çıxaracaqdı ki, bu da xanların narazılığını doğurmaya bilməzdi. O, təklif edirdi ki, əvvəlcə xanların ləğv olunacaq rahdar vergisinin əvəzində onlara ödənc (kompensasiya) verilməli, yalnız bundan sonra gömrük məntəqələrinin təşkilinə başlanılmalıdır (13, 87). Lakin sənədlərdən bəlli olur ki, A.P.Tormasovu narahat edən heç də xanların ləğv olunacaq rahdar vergisi məsələsi deyildi. Əslində o, yeni açılacaq gömrük zastavalarının mühafizəsinin təşkili üçün gərək olacaq əlavə hərbi qüvvənin saxlanmasına çəkiləcək xərclərin mənbəyini düşünürdü. Qraf N.P. Rumyantsevə 1809-cu ilin oktyabrın 30-da göndərdiyi məktubunda da o, bu barədə yazırdı. Həmin vaxt Bakıdan Quba və Dərbəndə kimi geniş ərazidə rusların sadəcə bir Sevastopol alayı və bir qarnizon batalyonu var idi. Halbuki burada gömrük zastavaları təşkil edildikdən sonra onları mühafizə etmək üçün əlavə hərbi qüvvə lazım olacaqdı ki, onların saxlanmasına çəkiləcək xərclərin qaynağı bəlli deyildi (13, 88).

Fəqət bütün çətinliklərə baxmayaraq, istila edilmiş Azərbaycan torpaqlarında, o cümlədən Dərbənddə gömrük xidmətinin təşkili zərurəti özünü təkidlə göstərirdi. Dərbənddə gömrük zastavasının açılmasını zəruri edən amillərdən başlıcası Cənubi Qafqaz əyalətlərində xanlıqlar dövründən qalan və ticarətin inkişafına əngəl yaradan gömrük sisteminin mövcudluğu idi. Hələ də fəaliyyətdə olan arxaik qaydalara görə tacirlər keçdikləri hər əyalətdə rüsum ödəyirdilər ki, bu da onları malların satış qiymətini süni şəkildə artırmağa məcbur edirdi. Bu barədə məlumat verən Bakı komendantı general-leytenant İ.İ. Repin göstərirdi ki, mallarına görə Dərbənddə rahdar rüsumunu ödəyən tacirlər, Quba ərazisindən keçəndə yeni rüsum ödəyir, Bakıya çatdıqda isə əlavə olaraq bir daha rüsum ödəmək məcburiyyətində qalırlar (20, 91). Belə üçqat rüsum ödənməsinin yolverilməz olduğunu bildirən qraf A.P. Tormasov qeyd edir ki, tacirlərdən mallarına görə rüsum yalnız bir yerdə alınmalıdır. Belə ki, Dərbənddə rüsum alındıqdan sonra tacirlərin mallarına gömrük möhürü vurulmalı və onlar əlavə ödəmələrdən azad edilməlidirlər. Əgər bu mallar Dərbənddən yan keçərək Bakıya gətirilirsə, onlardan rüsum Bakı gömrükxanasında tutulmalıdır (20, 91).

Belə bir durum bu istiqamətdə təxirəsalınmaz işlərin görülməsini zəruri edirdi. Nəticədə Dərbənddə gömrük zastavasının açılması qərara alınır və bu iş Bakı liman və sərhəd gömrükxanasının göstərişinə əsasən, anbar müfəttişi ştabs-kapitan Akim Avtarova həvalə olunur. Bu məqsədlə A.Avtarov 1809-cu ildə Dərbəndə gəlir. Onun Bakı liman və sərhəd gömrükxanasına göndərdiyi raportda göstərilirdi ki, həmin ilin noyabrın 26-da şəhər komendantı polkovnik Adriano, şəhər idarəçiliyinin məmurları və şəhərin fəxri sakinlərinin iştirakı ilə Dərbənd zastavasının açılış mərasimi keçirilmişdi. Dərbənd zastavasının məhkəmə iclasçısı Andrey Andreyev təyin olunur. Dərbənd şəhərindəki anbar və mağazalarda təftiş aparan gömrükçülər Dərbənd hərbi qubernatorunun vasitəsilə elan edirlər ki, məntəqənin açılışından 1811-ci ilin yanvarın 1-ə kimi ora gətirilən mallara görə rüsum tutulmayacaq (1, 90-91).

O dövrdə Cənubi Qafqazdakı gömrükxanaların ləğv edilməsi məsələsi bir ara yenidən aktuallaşır. Bu barədə maliyyə naziri D.A.Quryevin 1815-ci ilin yayında general Rtişşevə göndərdiyi məktubda göstərilirdi ki, müharibənin davam etdiyi bir dövrdə Bakı və Tiflisdəki gömrük zastavalarının ləğv edilərək əvəzində Qafqaz xətti boyu mövcud olan Qızılyar gömrükxanası ilə yanaşı Mozdokda da gömrük zastavalarının yaradılması nəzərdə tutulmuşdu. Lakin Qacar İranı ilə müharibənin başa çatmasından sonra yaranmış yeni şəraitdə Bakı və Tiflis gömrükxanalarını nəinki ləğv etmək, əksinə onları əlavə gömrük zastavaları ilə gücləndirmək zərurəti tezliklə özünü büruzə verdi (3, 319).

Bu istiqamətdə görülən tədbirlərlə Dərbənd gömrük zastavasının tərkibi genişləndirilir. 1815-ci ilə dair məlumatlarda Dərbənd zastavasının ştatının illik 170 rubl məvacib alan nəzarətçi, 150 rubl alan anbar nəzarətçisi, hər biri 85 rubl alan 2 rüsum toplayıcısı, 35 rubl alan qarovulçu, 135 gümüş rubl alan yol nəzarətçisi, hərəsi 85 rubl alan 5 atlı qoruqçu, hərəsi ildə 50 gümüş rubl alan 3 gömrükxana yoxlayıcısından ibarət olduğu göstərilirdi. Zastava binasının təmiri, lazım olduqda reydə çıxmaq üçün gəminin icarəyə götürülməsi, məktubların göndərilməsi kimi əlavə xərclərə ildə xəzinədən 120 rubl vəsait ayrılırdı. Ümumilikdə isə Dərbənd gömrük zastavasının saxlanılmasına xəzinədən ildə 1375 rubl vəsait ayrılırdı (3, 320; 5, 149).

Lakin bununla belə Cənubi Qafqazdakı gömrük sisteminin ümumən yarıtmaz vəziyyəti, Dərbənd gömrük zastavasının Bakı gömrükxanasına tabe edilməsi səbəbindən buraya satılmaq üçün gətirilən malların əvvəlcə mütləq Bakı gömrükxanasında təftiş olunması, orada rüsum ödəndikdən sonra yenidən Dərbəndə gətirilməsi qaydası ticarətin inkişafına ciddi əngəllər törədirdi. Bu qaydanın yerli əhaliyə də şamil edilməsi daxili ticarətə zərbə vurmaqla yanaşı, həm də yenicə itaətə gətirilmiş əyalətlərdə əhalinin narazılığına səbəb olurdu. Göstərilir ki, bu get-gəllər, süründürməçiliklər nəticəsində tacirlər malın dəyərindən artıq vəsaiti yollarda xərclədiklərindən bəzən mallarından imtina etməli olurdular (18, 215).

Buna görə də baş komandan kimi fəaliyyətə təzə başlayan general A.P. Yermolov Dərbənd və Qubaya satış üçün gətirilən mallara görə rüsumun yalnız Dərbənd və Quba zastavalarında tutulmasının vacibliyi, bu məqsədlə həmin zastavaları möhür və digər zəruri ləvazimatlarla təmin etməyin zəruriliyi barədə təkliflə çıxış edir (22, 217; 23, 216). General-leytenant A.A. Velyaminov maliyyə naziri qraf D.A. Quryevə yazdığı 1820-ci il 6 fevral tarixli məktubunda Yermolovun Dərbənd və Qubaya gətirilən mallar üçün gömrük rüsumunun yerində, yəni Dərbənd və Quba gömrük zastavaların-

da tutulmasının daxili ticarətin inkişafı baxımından vacibliyini əsaslandırmasına baxmayaraq, hələ də bununla bağlı heç bir rəyin verilmədiyini bildirirdi (23, 216).

Quba əyalətindəki orduların komandanı general-mayor baron B.A.Vrede də general-leytenant A.A.Velyaminova məktubunda yerli əhalinin öz mallarının satılması zamanı onlardan gömrük rüsumunun tutulmasından, bunun üçün onların Bakı gömrükxanasına göndərilmələrindən şikayət etdiklərini bildirirdi. Vredenin bu xəbərdarlığından sonra Bakı gömrükxanasının rəisi daxili bazarda satılan mallara görə yerli əhalinin incidilməməyi, onlardan gömrük rüsumunun tutulmamağı barədə tabeliyində olan Quba və Dərbənd zastavalarına göstəriş vermişdi. Lakin bu təlimatdan sonra da bu sahədə vəziyyət dəyişməmişdi. 30 may 1817-ci il əsasnaməsinə görə satılan mallara görə gömrük rüsumunun alınması nəzərdə tutulduğundan Vrede çıxış yolu kimi heç olmasa kəndlilərdən rüsumun yerində tutulmasını, yalnız tacirləri Bakıya göndərməyi təklif edirdi (24, 215).

1818-ci ildə Dağıstanda baş qaldırmış hərəkatın yatırılmasından sonra baş komandan general A.P.Yermolov yenicə itaətə gətirilmiş dağlı xalqları ilə ticarətin qaydaya salınması, bu işdə mövcud bütün əngəllərin aradan qaldırılması, onlarda rus hakimiyyətinə etibarın yaradılması məqsədilə xüsusi göstəriş verir. General A.P.Yermolovun 1820-ci ilin yanvarın 19-da Bakı gömrükxanasına verdiyi təlimatda bildirilirdi ki, maliyyə nazirinin müvafiq qərarına kimi Dərbənd və Quba əyalətlərinə satış üçün gətirilən mallara görə yerli əhalidən rüsum yerli zastavalarda tutulacaqdır, onlar bunun üçün daha Bakıya getmək məcburiyyətindən qurtulacaqdılar. Qərarının dəqiqliklə yerinə yetirilməsi üçün Bakı gömrükxanasına Dərbənd və Quba zastavalarına lazımi göstəriş vermək tapşırılırdı (18, 215-216).

A.P.Yermolov Dərbənd və Quba zastalarına da eyni məzmunlu təlimat vermişdi. Təlimatda yalnız xaricdən gətirilən, eləcə də yerli əhali tərəfindən satılan xaricdə istehsal olunmuş mallara görə rüsumun Bakı gömrükxanası tərəfindən tutulmalı olduğu bildirilirdi (19, 216). Qeyd olunurdu ki, bu təkcə dağlı xalqlarla daxili ticarətə deyil, həmçinin İranla ticarətə də müsbət təsir göstərəcək. Çünki mövcud gömrük qaydalarına görə Dərbənd, Quba, Salyan və digər yerlərə satılmaq üçün gətirilmiş İran malları mütləq ilk öncə Bakı gömrük nəzarətindən keçməli idi. Belə bir qayda tacirləri yerlərdə gömrük məntəqələri olduğu halda rüsumu ödəmək üçün Bakıya dönməyə vadar edirdi (23, 216).

Yermolov Dərbəndə gələrək məsələ ilə bilavasitə yerində tanış olduqdan sonra belə bir qənaətə gəlmişdi. O, maliyyə naziri qraf D.A.Quryevə 1820-ci ilin fevralın 17-də göndərdiyi raportunda yazırdı ki, Dərbənddə ikən yerində vəziyyətlə tanış olduqdan sonra əmin olur ki, bu sistemin tətbiqi "həm daxili ticarətin inkişafı, həm dağlı xalqların bizə münasibətin yaxşılaşması" baxımından çox vacibdir (22, 217).

Bir yerdən başqa yerə aparılan, eləcə də Qacarlar dövlətindən və Osmanlı Türkiyəsindən gətirilən malların süni əngəllərlə üzləşməsi, onların mütləq Bakı gömrük məntəqəsindən keçdikdən sonra satış yerlərinə, o cümlədən Dərbəndə gətirilməsi ticarətin inkişafına zərbə vururdu. Belə bir qayda eyni zamanda Dərbənd gömrük zastavasının gəlirlərinin azalmasına, onun zərərlə işləməsinə səbəb olurdu. Bu barədə Yermolov 1824-cü ilin mayın 20-si və avqustun 31-də imperiyanın maliyyə naziri Y.F.Kankrinə ünvanladığı təliqələrində ətraflı bəhs edirdi. O, göstərirdi ki, Dərbənd və Qubada təşkil olunmuş gömrük zastavalarında toplanan rüsumun miqdarı olduqca azdır və zərərlə işləyən həmin məntəqələrin saxlanması xəzinə üçün əlavə yükdür. Sözügedən gömrük məntəqələrindən toplanan gömrük rüsumunun miqdarı müvafiq olaraq illik Dərbənd məntəqəsində 86 gümüş rubl, 1571 kağız pul, 118 mis rubl, Qubada isə 380 gümüş rubl, 16 mis rubl təşkil edirdi. Halbuki bu məntəqələrin saxlanması xəzinəyə 2335 gümüş rubla, yəni həmin məntəqələrdən əldə olunana gəlirdən 3 dəfə artıq xərcə başa gəlirdi. Bu mülahizələrə əsasən A.P. Yermolov onların bağlanmasını, əvəzində isə Salyanda zastava təşkil etməyi təklif edirdi (9, 225; 10, 232).

Çıxış yolu kimi hökumət dairələri müxtəlif yollara əl atırdı. İlk növbədə malların yerində yoxlanılaraq, gömrük rüsumunun tutulması üçün postun təşkil edilməsi qərara alınır. Bakı gömrükxanasının Dərbənd zastavasının nəzarətçisi Dyaçenkov bu məqsədlə Dərbənd və Qubanı gəzmiş, lakin münasib yer tapa bilməmişdi (11, 235-236).

General-adyutant Sinyaqinin gömrük işinin təftiş edilməsi məqsədilə Cənubi Qafqaza ezam edilmiş dövlət müşaviri Salvatori və saray müşaviri Xripkovdan ibarət komissiyanın fəaliyyəti ilə bağlı qraf İ.F. Paskeviçə göndərdiyi qeydlərdə rus hakimiyyətinin planları barədə məlumatlar var.

"Qeydlərdə" deyilirdi ki, ləğv edilməsi nəzərdə tutulan Quba və Dərbənd zastavalarını Astara və Lənkəranda təşkil olunacaq zastavalar əvəz edə bilər, Dərbənd limanı isə müvəqqəti olaraq Bakı gömrükxanasının nəzarətinə verilə bilər (4, 131). Sənədlərdən bəlli olur ki, bu istiqamətdə sonrakı illərdə müəyyən təkliflər irəli sürülsə də, onların yerinə yetirilməsi üçün heç bir əməli addım atılmamışdı. A.P.Yermolov 1827-ci il fevralın 1-də maliyyə naziri Y.F.Kankrinə göndərdiyi təliqəsində Dərbənd və Quba gömrük zastavaları barədə əvvəlki fikrində qaldığını, Dərbəndə gətirilən İran mallarının Bakı və Qızılyara göndərilməyərək, onların yoxlanışının yerində təşkil edilməsinin mümkünlüyünü, bu işi Dərbənd komendantına həvalə etməklə onu bunun üçün lazımi qaydalarla təmin etməyin zəruriliyini bildirirdi; əks halda həmin məntəqələrin saxlanmasının xəzinə üçün sərfəli olmadığı bir daha vurğulanırdı. (12, 248). Nəticədə 1831-ci il 3 iyun tarixində Əlahəzrət tərəfindən verilmiş "Zaqafqaziya diyarında ticarət və gömrük işlərinin təşkilinə dair əsasnamə" ilə Dərbənd gömrük zastavası Bakı gömrükxanasına tabe edilirdi. Zastavada illik 350 gümüş rubl məvacibli 1 nəzarətçi, 250 rublla 1 anbar nəzarətçisi, müvafiq olaraq ildə 150 və 100 gümüş rubl məvaciblə 2 dəftərxana xidmətçisi, hərəsi 50 rubl alan 3 gömrükxana yoxlayıcısı kimi ştat yerləri açılırdı.

Dərbənd gömrük zastavasının saxlanması yeni ştatla xəzinəyə ildə cəmi 1350 gümüş rubla başa gəlirdi [5, 149; 2, 76]. Nəticədə 1832-ci ildə Dərbənd gömrük zastavasından 1168327 rubl 10 qəpik dəyərində mal buraxılmış, 40430 rubl 20 qəpik dəyərində mal gətirilmişdi (7, 141).

XIX əsrin 30-cu illərindən etibarən müxtəlif yerlərdən gətirilən mallarla birgə bura yoluxucu xəstəliklərin gətirilməsinin qarşısını almaq məqsədilə epidemiya tüğyan edən yerlərdən gəlmiş adamları, malları, gəmiləri yoxlamaq üçün səhiyyə məntəqəsi olan karantinlər təşkil olunmağa başlanılır. Bu məqsədlə 1835-ci ildə Qafqaz karantin-gömrük xətti təsis olunur (1, 91). Belə məntəqələr ölkədaxili və sərhəddə təşkil olunmaqla iki yerə bölünürdü. Dərbənd karantin məntəqəsi Bakı, Salyan, Lənkəran və Cavadla birlikdə daxili karantin hesab olunurdu (7, 137). Ənzəli, Rəşt, Astarabad, Türkmənistandan dəniz yolu ilə gətirilən mallar Dərbənd karantin məntəqəsində yoxlandıqdan sonra imperiyanın ərazisinə buraxılırdı (7, 141). Dənizdən nəzarəti təşkil etmək üçün Dərbənd karantininə hərəsində 8 avarçəkən və 1 dəniz bələdçisi olmaqla 2 kater verilirdi (7, 144).

Qafqazdakı Karantin hissəsi ilə bağlı Dövlət Şurasının üzvü, senator baron P.V. Qanın təsdiqinə verilmiş layihəyə görə, Qafqaz dağları silsiləsi boyu Xəzər dənizindən Qara dənizədək məsafədə Suxumqala, Vladiqafqaz və Dərbənddə karantin məntəqələrinin təsisi nəzərdə tutulmuşdu. Bu məntəqələrin məqsədi Qafqaz vilayətini yoluxucu xəstəliklərdən qorumaq idi (8, 63).

1844-cü ildə Dərbənd gömrük zastavası Dərbənd gömrük postuna çevrilməklə Bakı sərhəd və liman gömrükxanasına tabe etdirilir. 1847-ci ildə isə Port-Petrovsk ilə Dərbənddə gömrük və karantin hissələri birləşdirilir. 1847-ci il 4 may əsasnaməsinə əsasən Dərbənd gömrük və karantin zastavasına yeni ştat verilməklə, növbəti il karantin şöbəsi dənizin sahilində yerləşdirilirdi (5, 202). Dərbənd gömrük hissəsində sonrakı illərdə müəyyən struktur dəyişiklikləri aparılır. Nəticədə o 1861-ci ildə 3-cü dərəcəli karantin-gömrük zastavası, 1875-ci ildə isə karantin-gömrük postu adlandırılır (1, 91).

Nəticə olaraq qeyd etmək lazımdır ki, Dərbənd gömrük-karantin hissəsi Rusiya imperiyasının Cənubi Qafqazdakı gömrük sistemində xüsusi yer tutmaqla, ona Qacar İranı və Osmanlı Türkiyəsindən imperiya ərazisinə qaçaqmalçılıq yolu ilə müxtəlif malların – silah, siyasi xarakterli ədəbiyyatın gətirilməsi, eləcə də vəba, taun kimi yoluxucu xəstəliklərin qarşısının alınması kimi vacib funksiyalar həvalə edilmişdi.

ƏDƏBİYYAT

1. Гарунова Н.Н. Таможенные учреждения в системе государственного управления Российской империи XIX в.: Дербентский карантинно-таможенный пост в XIX в. с. 89-93 // Материалы международной научной конференции «Дербент в историческом процессе Кавказа и России», посвященной 2000-летию г. Дербента, Махачкала, 2015. 368 с.
2. Гулиев Р. А. О таможенной политике России в Северном Азербайджане (XIX- начало XX вв.), с. 75-79 // Научный поиск в XXI веке: материалы I международной научной конференции

по евразийскому научному сотрудничеству / под ред. В.А. Должикова. М., Глобальное партнерство по развитию научного сотрудничества, 2014. 146 с.
3. Записка о заставах, вновь учреждаемых на границах наших с Персией и Турцией, АКАК, т. V, Тифлис, 1873, стр. 319-320
4. Записка ген-адют. Синягина о с. с Сальватори и н. с. Хрипкова, командированных в Закавказский край. – Представление гр. Паскевичу при рапорте, от 19-го сентября 1828 года, АКАК, т. VII, Тифлис, 1878, стр. 125-132.
5. Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура, 1906. 468 с.
6. Нуратинов Д. А. Роль традиционных форм торговли в развитии экономики Дагестанской области конца XIX-начала XX вв. / Журнал «Вопросы структуризации экономики», 2005, №3, с. 38-43.
7. Отношение барона Розена к т.с. Блудову, от 18-го июня 1834 года, АКАК, т. VIII, Тифлис, 1881, с. 137-145.
8. Отношение ген. Головина к гр. Клейнмихелю, от 5 ноября 1841 года, АКАК, т. IX, Тифлис, 1883, с. 63-64.
9. Отношение ген. Ермолова к ген-л Канкрину, от 20-го мая 1824 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 225-226.
10. Отношение ген. Ермолова к ген-л Канкрину, от 31-го августа 1824 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 229-235.
11. Отношение ген. Ермолова к ген-л Канкрину, от 31-го августа 1824 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 235-236.
12. Отношение ген. Ермолова к ген-л Канкрину, от 1-го февраля 1827 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 248.
13. Отношение ген. Тормасова к графу Румянцеву, от 30 октября 1809 года, АКАК, т. IV, Тифлис, 1870, с. 86-88.
14. Отношение гр. Гудовича к гр. Румянцеву, от 10 марта 1807 года, АКАК, т. III, Тифлис, 1869, с. 42.
15. Отношение гр. Румянцева к гр. Гудовичу, от 29 января 1807 года, АКАК, т. III, Тифлис, 1869, с. 40.
16. Письмо барона Будберга к гр. Гудовичу, от 14 ноября 1806 года, АКАК, т. III, Тифлис, 1869, с. 703.
17. Предложение гр. Гудовича Казенной Экспедиции, от 27 января 1809 года, АКАК, т. III, Тифлис, 1869, с. 49.
18. Предписание ген. Ермолова Бакинской таможни, от 19-го января 1820 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 215-216.
19. Предписание ген. Ермолова Дербентской заставы, от 22-го января 1820 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 216.
20. Предписание ген. Тормасова Бакинской Таможне, от 17 марта 1810 года, АКАК, т. IV, Тифлис, 1870, с. 91.
21. Предположение, где нужно более и в каких именно пунктах постановить сухопутный по реке Куре и вообще на границе, прилегающей к Персии… заставы… (Составлен директором Астраханской портовой таможни н.с. Ивановым для ген. Тормасова), АКАК, т. IV, Тифлис, 1870, с. 82.
22. Рапорт ген. Ермолова к гр. Гурьеву, от 17-го февраля 1820 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 217.
23. Рапорт ген-л Вельяминова к гр. Гурьеву, от 6-го февраля 1820 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 216.
24. Рапорт ген-м барона Вреде 1-го ген-л Вельяминову, от 29-го сентября 1819 года, АКАК, т. VI, часть I, Тифлис, 1874, с. 214-215.
25. Тагиев Ф.А. История города Баку в первой половине XIX века (1806-1859). Баку, «Элм», 1999.

МАХИРА АЗИЗОВА
Д.ф.и.н., Бакинский славянский университет,
Кафедра дипломатии и внешней политики

ТАМОЖЕННО-КАРАНТИННАЯ ПОЛИТИКА ЦАРСКОЙ РОССИИ В ДАРБЕНДЕ ПОСЛЕ ОККУПАЦИИ

Россия, которая окончательно утвердилась на Кавказе в начале XIX века, рассматривала расположившегося на пересечении международных торговых путей Дербент как важный торговый порт, прежде всего, в торговых связях с Каджарским Ираном. Вот почему вопрос учреждения таможенной системы в Дербенте находился в повестке дня с самого начала оккупации города русскими войсками. В представленной статье на основе Актов Кавказской Археографической Комиссии, а также исходя из сведений соответствующей литературы по данному вопросу, исследуется организация таможенного и таможенно-карантинного дела в Дербенте.

В ходе исследования мы пришли к выводу, что Дербентская таможенно-карантинная часть занимала важное место в таможенной системе Российской империи на Южном Кавказе. Ей были вменены такие функции, как пресечение прохождения контрабандным путем во внутренние губернии империи разных товаров из Каджарского Ирана и Османской Турции, равно как и воспрепятствование проникновения заразных болезней.

Ключевые слова: Российская империя, таможенная политика, Южный Кавказ, Дербентская таможня.

MAHIRA AZIZOVA
Phd, Baku Slavic University
Department of diplomacy and foreign policy

CUSTOMS-QUARANTINE POLICY OF TSARIST RUSSIA IN DARBEND AFTER THE OCCUPATION

Russia, which was definitively established in the Caucasus at the beginning of the XIX century, considered located at the crossroads of international trade routes Derbent as an important trading port, especially in dealings with the Qajar Iran. That is why the question of the customs agencies in Derbent was on the agenda from the very beginning of the occupation of the city by Russian troops. In the present article on the basis of the Acts Caucasian Archaeological Commission, and based on the information of the relevant literature on the subject, studied the organization of the customs and quarantine services in Derbent.

In the study, we concluded that the Derbent customs and quarantine of the occupied an important place in the customs system of the Russian empire in the South Caucasus. She had been imputed to features such as the suppression of the passage of smuggled into the internal province of the empire of different goods from the Qajar Iran and the Ottoman Empire, as well as impeding the penetration of contagious diseases.

Keywords: Russian Empire, customs policy, the South Caucasus, Derbent customs office.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. Əsgər Əhməd, t.e.d. Qabil Əliyev.